# “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Milli Televiziya və Radio Şurası yaradılsın.

2. Müəyyən edilsin ki, Milli Televiziya və Radio Şurasının əsas vəzifəsi - televiziya və radio yayımlarının fəaliyyətini tənzimləmək, yayım zamanı ictimaiyyətin maraqlarını qorumaq, televiziya və radio yayımı haqqında qanunvericiliyə əməl edilməsi üzərində nəzarəti həyata keçirməkdir.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı bir ay müddətində Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. “Milli Mətbuat, Teleradio və İnternet Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli, 543 nömrəli Fərmanı qüvvədən düşmüş hesab edilsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

6. Müəyyən edilsin ki:

“Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun 7.0.4-cü və 19.5-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;**[1]**

həmin Qanunun 16.7-ci maddəsinin ikinci cümləsində ~~və 19.5-ci maddəsində~~ nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir; **[2]**

həmin Qanunun 11.2-ci, 11.3-cü, 11.4-cü, 11.5-ci, 11.6-cı, 13.1-ci, 13.3-cü, 13.5-ci, *16.11-ci,* 19.2-ci, 21.2-ci, 21.3-cü, 22.4-cü, *23.1-ci - 23.4-cü,* 29.2-ci, 30.2-ci, 30.3-cü, 33.1-ci, 34.3-cü, 40.2.7-ci maddələrində nəzərdə tutulmuş “dövlət orqanı”nın səlahiyyətlərini Milli Televiziya və Radio Şurası həyata keçirir;**[3]**

həmin Qanunun 16.1-ci, 16.3-cü, 16.4-cü və 16.5-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası həyata keçirir;

həmin Qanunun 14.4-cü, 16.6-cı, 16.8-ci, 16.11-ci, 20.3-cü, 26.1.3-cü, 30.3-cü maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirir;**[4]**

həmin Qanunun 18.4.3-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi həyata keçirir;**[5]**

həmin Qanunun 35.11-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**Heydər ƏLİYEV,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 oktyabr 2002-ci il

№ 794

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

**1.** 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 2, maddə 69**)
**2.** 29 noyabr 2006-cı il tarixli 485 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 947**)
**3.** 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798)**
**4.** 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 16 may 2014-cü il, № 101)**
**5.** 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1027)**
**6.** 16 sentyabr 2015-ci il tarixli **608** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 20 sentyabr 2015-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №9, maddə 995)**
**7.** 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)**

**8.** 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 8 avqust 2017-ci il, № 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1521**)

1.

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

**[1]** 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798**) ilə ikinci abzasında **"maddəsində"** sözü **"və 19.5-ci maddələrində"** sözləri ilə əvəz edilmişdir.

**[2]** 12 sentyabr 2008-ci il tarixli 826 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 13 sentyabr 2008-ci il, № 205, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 9, maddə 798**) ilə üçüncü abzasından **"və 19.5-ci maddəsində"** sözləri çıxarılmışdır.

**[3]** 16 sentyabr 2015-ci il tarixli **608** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 20 sentyabr 2015-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №9, maddə 995**) ilə 6-cı hissəsinin dördüncü abzasına "**13.5-ci,**" sözlərindən sonra "**16.11-ci,**" sözləri və "**22.4-cü,**" sözlərindən sonra "**23.1-ci - 23.4-cü,**" sözləri əlavə edilmişdir.

**[4]** 7 fevral 2005-ci il tarixli 193 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 2, maddə 69**) ilə 6-cı bəndin altıncı abzasında "**Rabitə Nazirliyi**" sözləri "**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

29 noyabr 2006-cı il tarixli 485 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 947**) ilə 6-cı bəndinin altıncı abzasından "16.7-ci (birinci cümlədə)," sözləri çıxarılmışdır.

2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 09, maddə 1027**) ilə 6-cı hissəsinin altıncı abzasında

“**İnformasiya Texnologiyaları**” sözləri “**Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 8 avqust 2017-ci il, № 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 8, maddə 1521)** ilə 6-cı hissənin altıncı abzasına “**Rabitə**” sözündən əvvəl “**Nəqliyyat,**” sözü əlavə edilmişdir.

**[5]** 29 noyabr 2006-cı il tarixli 485 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 11, maddə 947**) ilə 6-cı bəndinin altıncı abzasından “16.7-ci (birinci cümlədə),” sözləri çıxarılmışdır.

14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 16 may 2014-cü il, № 101)** ilə 6-cı hissəsinin yeddinci abzasında “**İqtisadi İnkişaf**” sözləri “**İqtisadiyyat və Sənaye**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Respublika” qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)** ilə 6-cı hissənin altıncı bəndindən “**və Sənaye**” sözləri çıxarılmışdır.